Ağaşahqızı, Yaqut. Ali Baş Komandanın qətiyyəti, ordumuzun gücü, xalqımızın həmrəyliyi / Y. Ağaşahqızı // İki sahil. - 2020. - 20 noyabr. - № 207. - S. 22.

“Sentyabrın 27-dən noyabrın 10-dək davam edən 44 günlük müharibədə Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında Azərbaycan Ordusunun qazandığı möhtəşəm Qələbə müasir tarixin ən şanlı səhifələrindən biridir. Cənab Prezidentin qeyd etdiyi kimi, bu müharibə bütün dünyaya Azərbaycan xalqının nə qədər böyük, yenilməz, dəmir iradəli xalq olduğunu, ordumuzun yenilməz və müzəffər ordu olduğunu göstərdi. Azərbaycan Ordusunun işğalçı Ermənistan silahlı qüvvələrinə qarşı başladığı əks-hücum əməliyyatı ölkəmizin tam Qələbəsi və düşmənin kapitulyasiyası ilə nəticələndi. Müzəffər ordumuzun hər bir əsgəri, hər bir zabiti müharibədə qəhrəmancasına döyüşdü, düşmənin torpaqlarımızdan qovulmasında müstəsna xidmətlər göstərdi, şəhid oldu, yaralandı, öz həyatını risk altına atdı, lakin məqsədi uğrunda inadından dönmədi, cəsarətlə zəfər yürüşünü son nəticəyə qədər davam etdirdi. İkinci Qarabağ müharibəsinin şəhidləri döyüş meydanında göstərdikləri fədakarlıq və qəhrəmanlıqları ilə öz adlarını tarixə qızıl hərflərlə həkk etdilər”.

Bu fikirləri “İki sahil”ə açıqlamasında Yeni Azərbaycan Partiyası Sabunçu rayon təşkilatının sədri Mehriban Abasquliyeva söylədi.

M.Abasquliyeva bildirdi ki, Qələbəmizin əsas amillərindən biri də beynəlxalq səviyyədəki uğurlarımızdır. Prezident İlham Əliyevin müəyyənləşdirdiyi uğurlu xarici siyasət nəticəsində Qarabağın əzəli Azərbaycan torpağı olması bütün dünyaya sübut edildi. Prezident İlham Əliyev hərb meydanında müzəffər sərkərdə, diplomatik cəbhədə böyük strateq nümunəsi ortaya qoydu, informasiya müharibəsində Azərbaycanın haqq səsi oldu, cəsarətlə bütün təzyiqlərə sinə gərdi. İkinci Qarabağ savaşı cənab İlham Əliyevin təkrarsız diplomatik məharəti ilə yanaşı, həm də yenilməz sərkərdəlik qabiliyyətini bütün dünyaya göstərdi. Azərbaycan Ordusu döyüş meydanında zəfər yürüşünü davam etdirdiyi günlərdə Prezident İlham Əliyev beynəlxalq mediaya müsahibələrində, bir çox ölkələrin liderləri ilə telefon danışıqlarında Azərbaycanın haqq səsini dünyaya çatdırdı, ölkəmizin ədalətli və beynəlxalq hüququn ali prinsip və normalarına söykənən mövqeyini qətiyyətlə müdafiə etdi. Bütün dünya həqiqətləri məhz Azərbaycanın dövlət başçısından, ən etibarlı mənbədən əldə etdi. Azərbaycan işğalçı ölkənin və erməni diasporunun yalan təbliğatını, çirkin qara piar kampaniyasını dövlət başçısının qətiyyəti sayəsində darmadağın etdi. Prezident İlham Əliyevin yüksək diplomatik səriştəsi, sarsılmaz iradəsi və möhtəşəm liderliyi ilə diplomatiya sahəsində də parlaq qələbələr qazanıldı”.

Həmsöhbətimiz Vətən müharibəsi dönəmində dövlət – xalq – ordu birliyinin ən yüksək zirvəyə çatdığını qeyd etdi: “Bu tarixi zəfər, torpaqlarımızın azad edilməsi

həm də Azərbaycan xalqının özünə inamını qaytardı, xalqın öz liderinə, onun gücünə etibarını daha da möhkəmləndirdi. Bu müharibə Azərbaycan xalqının, onun liderinin, şanlı ordumuzun gücünü bütün dünyaya nümayiş etdirdi. Bütün dünya gördü ki, Azərbaycan xalqı heç vaxt məğlubiyyətlə barışmayacaq və gec-tez öz amalına qovuşacaqdır. 44 günlük savaş Azərbaycan xalqının mətin iradəsini, milli ideya ətrafında sarsılmaz ümumxalq həmrəyliyinə nail olmaq bacarığını, işğala boyun əyməmək əzmini və dünya birliyi tərəfindən göstərilən ədalətsizliyə qarşı barışmazlığını nümayiş etdirdi. Azərbaycan xalqı öz liderinin–Müzəffər Ali Baş Komandan İlham Əliyevin ətrafında sıx birləşərək bütün dünyaya öz gücünü, mətinliyini, mübarizliyini nümayiş etdirdi. Xalqımızın öz lideri ətrafında bir yumruq kimi birləşməsi düşməni bütün cəbhələrdə məğlubiyyətə uğratdı."

M.Abasquliyeva vurğuladı ki, hazırda işğaldan azad edilən yaşayış məntəqələrimizdə ermənilər tərəfindən dağıdılan infrastrukturun bərpası istiqamətində proqramlar hazırlanır: "Şuşa, Kəlbəcər, Laçın və digər rayonlarımızda dağıdılan məscidlərin, tarixi abidələrin, məktəblərin yenidən bərpa olunacağı, Şuşa şəhərinin işğaldan öncə olduğu kimi, Azərbaycanın yenidən əsas turizm mərkəzinə çevriləcəyi, yağı tapdağından qurtulan torpaqlarda kənd təsərrüfatının inkişaf etdiriləcəyi haqqında tədbirlər planı üzərində işlənilir. Prezident İlham Əliyevin vurğuladığı kimi, Azərbaycan vətəndaşları yenə də bu tarixi torpaqlarımızda yaşayacaq, qurub- yaradacaqlar. Amma bugünkü tarix heç vaxt unudulmayacaq. Bu dağılmış, yandırılmış evlər, viran qoyulmuş kənd və şəhərlər erməni vəhşiliyinin canlı şahidləridir. Bu evlərdə, bu şəhərlərdə yaşayacaq insanlarımızın Vətən sevgisi ilə hər qarış torpağımız tez bir zamanda canlanacaq, yurd yerlərimiz gülüstana çevriləcək. Ərazi bütövlüyünü bərpa edən, tarixi torpaqlarında üçrəngli bayrağımızı ucaldan Azərbaycan dövləti bu tarixi qələbədən sonra daha da qüdrətlənəcək, inkişaf edəcək. Bu şanlı, tarixi Qələbənin əldə olunması münasibətilə bir daha xalqımızı, Müzəffər Ali Baş Komandanımızı, əzmkar ordumuzu təbrik edirəm. Vətən müharibəsində öz qanı, canı bahasına torpaqlarımızı qoruyan şəhidlərimizə Allahdan rəhmət diləyirəm."

Yaqut Ağaşahqızı, "İki sahil"